# Bəşəriyyətə və insanlığa qarşı törədilmiş qanlı qətliam

## Xocalı soyqırımının 25-ci ildönümü anıldı

*Fevralın 25-də Qəbələ Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə "Xocalı soyqırımı uşaqların gözü ilə" adlı rəsm sərgisi ilə tanış olub.*





Rəsmi mərasimi regional mədəniyyət və turizm idarəsinin Qəbələ rayonu üzrə nümayəndəsi Nargilə Qafarova açıb və Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev çıxış edərək Xocalı faciəsinin Azərbaycan xalqına və bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu deyib. O, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş SSRİ-nin Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikasının və şəxsi heyətinin köməyi ilə Xocalı şəhərində dinc əhaliyə, o cümlədən qadın, qoca və uşaqlara qarşı ən qəddar cinayətlər törədiildiyini bildirib. Qeyd olunub ki, soyqırımı nəticəsində 613 Xocalı sakini vəhşicəsinə öldürülüb. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl yaşlı insanlardır. O müdhiş gecədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.

Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli mənsubiyyətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədildiyini deyən cənab Səbuhi Abdullayev bildirib ki, Xocalı soyqırımı özünün siyasi-hüquqi qiymətini yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra alıb və Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılması ilə bağlı məqsədyönlü tədbirlər görülməsinə başlanılıb. Məhz ulu öndərin təşəbbüsü ilə 1994-cü ildə Azərbaycan Milli Məclisi fevralın 26-nı Xocalı Soyqırımı Günü elan edib.

RİH başçısı diqqətə çatdırıb ki, bu gün dünya ictimaiyyətinin Xocalı həqiqətləri barədə məlumatlandırılması istiqamətində işlər davam etdirilir. Natiq Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə hər il həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Qeyd edib ki, artıq bir sıra ölkələrin parlamentləri, ABŞ-ın 20-dən çox ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və qınayan sənədlər qəbul ediblər.

Cənab Səbuhi Abdullayev Xocalı soyqırımından 25 il keçməsinə baxmayaraq, bu faciənin hələ də unudulmadığını və bütün dünyada tanıdılması üçün yüksək səviyyədə işlər görüldüyünü, eyni zamanda, bütün qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin, müharibə əlillərinin, o cümlədən də Xocalı sakinlərinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarını söyləyib.

Rayon icra hakimiyyətinin başçısı Azərbaycanın haqq səsinin eşidiləcəyinə, ermənilərin mənfur əməllərinin beynəlxalq səviyyədə qınaq obyektinə çevriləcəyinə, Xocalı qətliamının təqsirkarlarının cəzalarına çatacağına, xalqımızın işğal altındakı bütün torpaqlarını düşməndən tezliklə azad edəcəyinə, əzəli torpaqlarımızdan didərgin düşmüş həmvətənlərimizin öz ata-baba yurdlarına qayıdacaqlarına və ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminliyini bildirib.

Mərasimdə Xocalıdan olan məcburi köçkün Qiyas Əhmədov çıxış edərək erməni vandallarının həmin gecə törətdiyi qanlı qətliamı tarixin ən dəhşətli faciəsi kimi qiymətləndirib. O, cinayətkarların gec-tez ədalət məhkəməsi qarşısında cavab verəcəklərinə əminliyini qeyd edib. Xocalı soyqırımı ilə bağlı reallıqların beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bu gün Prezident cənab İlham Əliyev tərəfindən çox böyük işlərin görüldüyünü diqqətə çatdırıb.

Tədbir Qəbələ Mədəniyyət Mərkəzinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam edib.

Yekunda rayonumuzda məskunlaşmış Xocalı sakinlərinə müvafiq maddi yardım göstərilib.

✍ **Varis YAQUBOV.**
**İlkin Vəlizadə.**
***"Qəbələ".***

## 2017-ci il Azərbaycanda İslam həmrəyliyi ilidir

Azərbaycan Respublikası 2016-cı ili "Multikulturalizm ili" kimi qeyd edərək ənənəvi şəkildə tarixə yeni bir şərəfli səhifə yazdı. Bildiyimiz kimi Prezident cənab İlham Əliyev 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili"elan edilməsi haqqında sərəncam verib. Son zamanlar İslam dəyərlərinin qorunması, təbliği, islam mədəniyyətinə hörmət edilməsi bu günün aktual məsələsi kimi hər kəsi düşündürür. Bununla əlaqədar olaraq Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində "dəyirmi masa" təşkil olunmuşdur.

Tədbirdə muzeyin direktoru Xalis Məmmədov 2017-ci ilin "İslam həmrəylliyi ili" kimi tariximizdə böyük izlər qoyacağı haqqında geniş mövzuda söhbət açmışdır. Qeyd olunmuşdur ki, qədim keçmişə malik Azərbaycan uzun əsrlər islam sivilizasiyasının əsas mərkəzi kimi diqqət çəkmişdir. Ölkəmizdə hər zaman islami dəyərlər qorunmuş, ehtiram və diqqətə layiq görülmüşdür.

Tədbirin sonunda islam mədəniyyəti abidələri olan məbədlərin fotolarından ibarət sərgiyə baxılmışdır.

**Rayon tarix-diyarşünaslıq muzeyi.**

## Bu faciə unudulmamalıdır

*Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar Qəbələ Rayon Polis Şöbəsində tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə polis şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədov açmışdır. Xocalıda ermənilər tərəfindən törədilən misli görünməmiş soyqırımı hadisəsi zamanı vəhşicəsinə qətlə yetirilmiş soydaşlarımızın, o cümlədən şəhərin müdafiəsi zamanı qəhrəmanlıqla həlak olan polis işçilərinin və döyüşçülərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.*





Sonra söz rayon təhsil şöbəsinin məsul işçisi, tarixçi Rasim Bayramova verilmişdir. Natiq bildirmişdir ki, 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni quldur dəstələrinin Xankəndində yerləşən keçmiş SSRİ-yə məxsus 366-cı alayının zirehli texnikasının və canlı qüvvəsinin yardımı ilə həyata keçirdiyi azərbaycanlılara qarşı soyqırımı ötən əsrdə insanlığa qarşı törədilmiş ən qəddar hadisələr sırasında durur. Bu soyqırımı hadisəsini İkinci Dünya Müharibəsində alman faşistlərinin Belarus Respublikasının Xatın kəndində törətdikləri qətilamla müqayisə edirlər. Lakin Xocalı faciəsinin dəhşəti onunla fərqlənir ki, burada insanlar ancaq azərbaycanlı olduqlarına, müsəlman olduqlarına görə vəhşicəsinə öldürülüb, təhqir edilib, işgəncələrə məruz qalıb. Ona görə də bu faciə bizim xalqımıza qarşı törədilmiş əsl soyqırımdır. Çox təəssüf ki, Xocalı faciəsi bir sıra dövlətlərin parlamentləri tərəfindən soyqırımı kimi tanınsa da Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ) və sair bu kimi dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən əsil qiymətini almamışdır. Xocalıda soyqırımına başçılıq edən erməni quldurları indi Ermənistan adlı terrorçu dövlətdə ali siyasi və hərbi vəzifələrdədirlər.

Tədbiri yekunlşdıran polis şöbəsinin rəisi bildirdi ki, Xocalıda ermənilər tərəfindən törədilən misli görünməmiş vəhşilik heç zaman unudulmamalıdır. Doğrudur bizim xalq qisasçı xalq deyil, tarix boyu düşmənlərimizi də bağışlamışıq. Ancaq bu gün 25 illiyini ürək yanğısı ilə andığımız hadisəni unutmağa haqqımız yoxdur və gələcək nəsilləri də bu ruhda tərbiyə etməliyik.

✍ **Qüdrət SƏMƏDOV.**
**İlkin Vəlizadə.**
***«Qəbələ».***